**Xarici ölkələrdəki qida obyektlərinin təsdiqi prosesinə dair məlumat**

**(24 iyun 2023)**

Cari ilin iyun ayı ərzində Rusiya Federasiyası, Belarus Respublikası, Bolqarıstan Respublikası, Çin Xalq Respublikası, Gürcüstan Respublikası, İran İslam Respublikası və Ukrayna Respublikasına məxsus 9-u yerində, 17-si isə onlayn formatda aparılmaqla 26 müəssisədə qiymətləndirmə həyata keçirilib.

Hazırda qiymətləndirmə aparılmış xarici qida obyektlərindən qiymətləndirmə hesabatları yekunlaşan 26 xarici obyektdən 20-si təsdiq edilib, 4-ü şərti təsdiq edilib və 2-si ilə bağlı isə təkrar qiymətləndirmənin aparılması barədə qərar qəbul edilib.

Qeyd edək ki, cari ilin iyun-sentyabr ayları ərzində adıçəkilən ölkələr, eyni zamanda Litva da daxil olmaqla, 41-i yerində, 116-sı onlayn formatda (həmin ölkələrin aidiyyəti qurumları ilə razılaşdırılmış siyahı əsasında) 157 müəssisədə qiymətləndirmə aparılması nəzərdə tutulur.